*Təkəlduz kimi tanınan bu sənət əsasən Şəkidə inkişaf edib. Tarixən şəhərdə ipəkçiliyin başlıca yer tutması bu sahənin inkişafına böyük təkan vermişdir və yerli ustaların gərgin əməyi nəticəsində bu sənət gələcək nəsillərə ötürülmüşdür. Bununla yanaşı, təkəlduz nümunələri Azərbaycanın sərhədlərindən kənarda da məşhur olub. XIX əsrdə təkəlduzçuluğun mərkəzi Şəki şəhəri sayıldığı bir dövrdə isə bu işlə əsasən kişilər məşğul idi.*








# Ölkəmizi dünyada tanıdan təkəlduz

Şəhərdəki **"Sənətkarlar evi"ndə təkəlduz ustası işləyən Vəfa Mustafayeva** 22 ildir ki, bu sahədə çalışır. O, sənətinin ilk vərdişlərini atası Natiq müəllimdən, bacısı Ayseldən isə incəliklərini öyrənib və bütün işləri demək olar ki, bacısı ilə birgə görür.

Əl işləri ilə ölkəmizi dünyada tanıdan Vəfa xanım deyir ki, bu sənət çox maraqlı olduğu üçün daim inkişaf edir. Buna görə də sənətkar uğur qazanmaq və işindən zövq almaq üçün həmişə yenilikçi olmalıdır. Bu sənətin çox böyük tarixi var. Hətta keçmişdə balınc üzlərində, süfrələrdə, xanımların geyimlərində təkəlduzdan istifadə ediblər. Xanımların geyimlərində təkəlduz olurdusa, bilinirdi ki, həmin xanım varlı ailənin və ya zadəgan qızıdır.

Həm də bu sənət qış fəslini sevir. Ona görə də qışda daha çox işləyir, yayda da işlərimizi sərgiləyirik. Çünki isti hava qalın parçaya təsir etdiyindən asan tikmək olmur.

Bununla yanaşı, mütəmadi olaraq təkəlduz əl işlərimizi çərçivəyə salırıq ki, müasir olsun, itib-batmasın.

Əsas milli naxışlara üstünlük veririk. Hər bir sənətkar öz milli üslubunu yaratmalı və ona üstünlük verməlidir. Əgər biz Avropa üslubunda işləsək, o sənətin içində itib-batarıq. Ona görə də buta ornamentlərindən, Şəki Xan Sarayının divar naxışlarındakı naxışlardan daha çox istifadə edirik. Gələn turistlərə də bunu təbliğ edirik. Biz onlara işlərimizi Xan Sarayının divar naxışlarından çəkilmiş naxış olduğunu deyəndə onlara maraqlı gəlir və onu almağa çalışırlar.

Peşənin tarixinə toxunan Vəfa xanım qeyd etdi ki, keçmişdə təkəlduz naxışları vasitəsilə insanlar bir-biriylə danışıblar. Yəni xanım öz sevdiyinə yaylıq üzərinə naxış çəkib verirdi, oğlan da xanımın nə dediyini o naxışla bilirdi. Həm də Azərbaycan naxışları o qədər zəngindir ki, sanki onlar danışırlar. Bunun üçün yaxşı sənətkar olmaq üçün işgüzar olmaqla yanaşı, həndəsəni də bilməlisən. Əgər 1 santimetr əskik və ya artıq olsa, naxışlar əyri alınacaq. Həmçinin rəssamlıq qabiliyyətin də olmalıdır. Ona görə ki, əvvəl eskiz çəkilir ki, naxışlar kobud alınmasın.

Heydər Əliyev Fondu tərəfindən təkəlduz sənətinin xarici ölkələrdə də sərgiləndiyini vurğulayan Vəfa xanım dedi ki, bu sənətə görə əksər ölkələrin böyük şəhərlərində olmuşuq və çoxsaylı sərgilərdə sənətimizi təbliğ etmişik. Mən orada gördüm ki, əcnəbilər də təkəlduz sənətinə çox maraq göstərir.

Qazandığı uğurlar Vəfa Mustafayevanı həvəsləndirir. Deyir ki, Parisin milyonlarla ziyarətçisi olan Luvr muzeyinin qarşısındakı meydanda Heydər Əliyev Fondunun təşkil etdiyi "Azərbaycan şəhərciyi" çərçivəsində keçirilən sərgidə iştirakımı həyatımın ən xoşbəxt anlarından biri hesab edirəm. Heydər Əliyev Fondunun prezidenti



Mehriban Əliyevanın iştirak etdiyi bu sərgiyə çox böyük maraq var idi.

Ölkəmizdə keçirilən I Avropa Oyunlarında, Formula 1 yarışlarında və digər böyük tədbirlərdə master-klass keçmişik və fəxri diplomlarla mükafatlandırılmışıq.

Təkəlduz sənətinin çox çətin bir peşə olduğunu vurğulayan Vəfa Mustafayeva yaratdığı hər iş üçün xeyli vaxt sərf etdiyini dedi. Belə ki, kiçikhəcmli işlər 4-5 günə, bəzən də 10 günə başa gəlir. Burada sifarişçilərin təklifi və marağı da öz sözünü deyir. Böyük ölçülü əl işləri isə bir ilə ərsəyə gəlir. "Xalça", "Xanım ceyranla birlikdə" əsərlərimi düz 5 aya hazırlamışam.

Tələbələri barədə danışaraq dedi ki, hazırda 3 nəfərdi, biri bacım qızıdı. Onları öyrətməklə yanaşı, məsləhət görürəm ki, tələsməsinlər, "sənətkaram" deyib dayanmasınlar və satmaq üçün yox, sənətdə qalmaq üçün çalışsınlar.

**Mikayıl NƏRİMANOĞLU,**
**"Respublika".**